

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 140 (21.041)

24 iyul 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Herbert Salberi Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vəzifəsində fəaliyyətə başlaması münasibətilə təbrik edən Prezident İlham Əliyev onun bu səfərinin regiondakı vəziyyətlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına əminliyini ifadə etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan münaqişənin sülh yolu ilə nizama salınmasına tərəfdardır. Qeyri-konstruktiv mövqe nümayiş etdirən Ermənistan isə nə beynəlxalq hüquqa, nə də həmsədr ölkələrin rəhbərlərinin bəyanatlarına məhəl qoyur. Münaqişə nəticəsində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin hələ də işğal altında olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, əgər problem beynəlxalq hüquq çərçivəsində, ədalətli həll olunmazsa, regionda vəziyyət daha da mürəkkəbləşə bilər.

Regiona müxtəlif vaxtlarda bir neçə dəfə səfər etdiyini vurğulayan Herbert Salber mövcud vəziyyətlə tanış olduğunu dedi. O, təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığı genişləndirərək regiondakı münaqişələrin həllinə öz töhfəsini vermək niyyətində olduğunu vurğuladı.

## Naxçıvan şəhərində sığorta fəaliyyəti ilə əlaqədar görülən işlər müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birlikdə sığorta fəaliyyəti, görülmüş işlər, qarşıda duran vəzifələrlə bağlı yığıncaq keçirib. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yığıncağın mahiyyəti barədə danışıb.***

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov "Naxçıvan şəhərində sığorta fəaliyyəti, görülmüş işlər, qarşıda duran vəzifələr" mövzusunda məruzə edib. Qeyd olunub ki, 2011-ci il noyabr ayının 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə muxtar respublikada sığorta fəaliyyəti geniş müzakirə olunub, qarşıya bir sıra mühüm vəzifələr qoyulub.

Baş direktor tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, müşavirədən ötən dövr ərzində Naxçıvan şəhərində sığorta sahəsində müəyyən işlər görülüb. Belə ki, 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk 6 ayı ərzində sığorta müqavilələrinin sayı və sığorta haqları toplanması 7,2 faiz artıb. Avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və daşınmaz əmlakın icbari sığortası üzrə ötən ilin ilk 6 ayı ilə müqayisədə artım olsa da, bu icbari sığorta növləri üzrə hələ də sığorta olunmayan yaşayış evləri və avtonəqliyyat vasitələri vardır.

"Başlıca vəzifə ondan ibarətdir ki, hər bir vətəndaşın daşınmaz əmlakı və avtonəqliyyat vasitəsinin mülki məsuliyyəti sığorta edilməklə onlar üçün hər hansı gözlənilməz hadisədən qanunla müəyyən edilmiş sığorta təminatı yaradılmağa nail olunsun", – deyən Hikmət Əsgərov fərdi qəza sığortasının və ev əmlakının sığortasının hər bir vətəndaş üçün vacibliyini vurğulayıb, sığorta fəaliyyətinin genişləndirilməsi məqsədilə yerlərdə maarifləndirici tədbirlərin aparılmasının diqqət mərkəzində saxlanıldığını bildirib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov sığorta fəaliyyətinin genişləndirilməsi üçün idarə, müəssisə və təşkilatlar qarşısında duran vəzifələrdən danışaraq yığıncağa yekun vurub.

## Bir kənddə dörd quruculuq ünvanı

Muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq işləri cari ildə Şərur rayonunun Dizə kəndini də əhatə edib. Hazırda bu yaşayış məntəqəsində bir neçə ünvanda quruculuq tədbirləri həyata keçirilir. Bu kənddə məktəb binası 1988-ci ildə tikilib. Son illər binanın müasir tələblərə cavab vermədiyi nəzərə alınaraq onun əsaslı təmir olunması zərurəti yaranıb. Müasirtipli layihə əsasında yenidən qurulan təhsil ocağı zirzəmi qatı ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. Qeyd edək ki, 140 şagirdin təhsil aldığı məktəbin yeni binasının layihəsində kəndin gələcək perspektivi nəzərə alınıb. Yeni bina 198 şagird yerlik nəzərdə tutulub. İnşaatçılara hərtərəfli şərait yaradılıb. Buraya kifayət qədər texnika və işçi qüvvəsi cəlb edilib. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verib. Qısa müddət ərzində köhnə məktəb binasında bəzi yardımçı tikililər sökülüb, əvvəlki binaya daha bir korpus əlavə edilib. Artıq obyektdə tikinti işləri başa çatdırılıb, dam örtüyü vurulub, elektrik, rabitə, su, istilik xətləri çəkilib, suvaq işləri qurtarıb. İndi fasad hissədə nəzərdə tutulmuş yerlərə milli naxışlarla bəzədilmiş və cilalanmış travertin üzlüklər vurulur, mərtəbələrarası pilləkənlərə və dəhlizlərə üzlük daş döşənir, həyətdə abadlıq işləri aparılır, yaşıllıq zolaqları üçün yerlər hazırlanır, qazanxananın, elektrik avadanlıqlarının və qızdırıcıların quraşdırılmasına hazırlıq görülür.

Layihəyə əsasən, məktəbdə 12 sinif otağı, 2 elektron lövhəli sinif, kompüter otağı, fizika, kimya, biologiya laboratoriyaları, hərbi kabinə, idman zalı, yeməkxana, kitabxana, psixoloq və müəllimlər üçün otaqlar olacaq.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə kəndin icra nümayəndəliyi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin kənddə rabitə evi və poçt bölməsi də yaradılacaqdır. Burada abunəçilərə yüksək səviyyədə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet və digər elektron xidmətlər təklif olunacaqdır.

Dizə kəndində daha bir quruculuq tədbiri iki mərtəbədən ibarət həkim ambulatoriyasının inşa edilməsidir. Ambulatoriyada baş həkim, stomatoloq, uşaq həkimi, ginekoloq üçün kabinələr, palata, doğuş, peyvənd, müayinə və manipulyasiya otaqları, aptek yerləşəcək. Bu səhiyyə müəssisəsində dünyanın aparıcı ölkələrinin istehsalı olan müasir tibbi avadanlıqların quraşdırılması nəzərdə tutulub.

Kənd sakinləri kənddə inşa olunan xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Hazırda obyektdə son tamamlama işləri aparılır. İnşaatçılar obyektin müasir tələblərə cavab verməsi üçün yaradılan şəraitdən səmərəli istifadə edirlər. Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza fəaliyyət göstərəcək. Mərkəzdə 5 nəfər işlə təmin olunacaqdır.

## Əhalinin sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzindədir

Muxtar respublikamızda əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin həcmi ildən-ilə artır. Üstün istiqamət verilən bu sahədə də cari ilin ilk 6 ayı ərzində bir sıra uğurlu layihələr icra edilib. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, bəhs olunan dövrdə muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 1 milyon 724 min manatdan artıq həcmdə ünvanlı dövlət sosial yardımı ödənilib. Ümumilikdə, bu dövr ərzində 530 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxsə evlərində sosial-məişət xidmətləri göstərilib. Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud olan 88 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud olan 166 uşağın müalicəsi təşkil olunub, istirahət etmələri üçün sağlamlıq imkanları məhdud olan 47 uşaq Ağbulaq İstirahət Mərkəzinə, bu qəbildən olan 6 uşaq isə valideynlərinin müşayiəti ilə Latviya Respublikasına, məhdud fiziki imkanlı 6 nəfər Yunanıstan Respublikasına müalicəyə göndərilib, 48 nəfər əlil müxtəlif sanatoriya və müalicə pansionatlarına yollayışlarla təmin edilib. 91 nəfərə protez-ortopedik xidmət göstərilib, 190 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunub.

Ötən dövr ərzində sosial qayğıya ehtiyacı olan 40 nəfərə minik avtomobilləri verilib. İki ailə üçün yaşayış evinin tikintisi hazırda davam etdirilir.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə də müsbət təsir göstərib. Belə ki, muxtar respublika əhalisinin sayı 1 iyun 2014-cü il tarixə bir il öncəyə nisbətdə 6 min 196 nəfər artaraq 437 min 67 nəfər olub.

Məlumatda o da bildirilir ki, muxtar respublikada pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılıb. Cari ilin ötən dövrü ərzində Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiya və müavinətlərin ödənilməsinə 56 milyon 477 min manatdan çox vəsait yönəldilib. Bu dövr ərzində pensiya və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 51 faizi məcburi dövlət sosial sığorta haqqı kimi muxtar respublikada toplanılıb.

## Növbəti ixtisasartırma kursuna başlanılıb



Muxtar respublikada tikinti sektorunda işlərin keyfiyyətlə aparılması, əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunması məsələləri daim diqqət mərkəzində saxlanılır. Bu il fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirədə tikinti işçilərinin əmək şəraitinin və iş yerlərinin əməyin mühafizəsi və təhlükəsizliyi qaydalarına uyğun olmasına, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri və xüsusi geyimlə təmin edilməsinə, işçilərin hüquqlarının qorunması məqsədilə qanunvericiliyə uyğun əmək müqaviləsinin bağlanmasına nəzarəti gücləndirmək, həmçinin əməyin mühafizəsi üzrə ixtisasartırma kurslarının təşkil olunması barədə müvafiq orqanlara tapşırıqlar verilib.

Verilmiş tapşırıqların icrası ilə bağlı həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunması mövzusunda növbəti ixtisasartırma kursuna başlanılıb.

Kursun keçilməsində əsas məqsəd su, kanalizasiya xətlərinin və yol çəkilişi ilə məşğul olan təşkilatların əməyin mühafizəsi mütəxəssislərinin peşəkarlıqlarını artırmaq və əməyin mühafizəsi, eləcə də texniki təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarətin gücləndirilməsini, işçilərin sağlam və təhlükəsiz şəraitdə işləmələrini təmin etməkdir.

İyulun 21-dən keçilməsinə başlanılan ixtisasartırma kursuna "Gəmiqaya Yol, Su, Enerji" MMC-nin, "Cahan İnşaat" MMC-nin, Naxçıvan Yol Təmir-Tikinti İdarəsinin, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz və Kəngərli Rayon Yol Təmir-İstismar idarələrinin, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Kəhrizlər İdarəsinin əməyin mühafizəsi üzrə 14 mütəxəssisi cəlb edilib.

Yeddi gün davam edəcək kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri iş yerlərinin əməyin mühafizəsi və təhlükəsizliyi normaları, qaydaları və prinsiplərinə uyğunlaşdırılması, fərdi və kollektiv mühafizə vasitələrindən düzgün istifadə olunması, baş verə biləcək bədbəxt hadisələr və peşə xəstəliklərinin qarşısının alınmasına dair mövzuları əyani vasitələrlə tədris edəcəklər. Qeyd edək ki, ixtisasartırma kursunda həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Baş Sığorta Agentliyinin əməkdaşları tərəfindən iş sahəsində əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməsinə görə məsuliyyət, iş yerlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılması, baş verən qəzalar zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi, yanğından mühafizə qaydalarına əməl edilməsi və işçilərin icbari sığorta olunmasının vacibliyi ilə bağlı müvafiq mövzularda söhbətlər aparılacaq.

İxtisasartırma kursu başa çatdıqdan sonra iştirakçıların keçilən mövzularla bağlı bilikləri yoxlanılacaq.

**Xəbərlər şöbəsi**

# “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası

## Naxçıvanda yeni uğurların təməlinə çevrilir



*Ölkəmizdə Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi son dövrlərdə bütün sahələrin inkişafına səbəb olmuş, Azərbaycan makroiqtisadi sabitliyə, dinamik iqtisadi inkişafa malik bir ölkə kimi regionun lider dövlətinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar ölkəmizin çox qısa bir zaman ərzində yeni inkişaf mərhələsinə qədəm qoyması ilə nəticələnmişdir. Xüsusilə ölkə başçısının 11 illik fəaliyyəti dövründə müxtəlif sahələrin inkişaf etdirilməsi ilə bağlı imzaladığı sərəncam və fərmanlar, müxtəlif dövrləri əhatə edən çoxsaylı dövlət proqramları uğurla icra edilərək hərtərəfli inkişafın yeni mərhələsinə qədəm qoyulmasına stimul vermiş, Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların reytinq cədvəlində layiqli yerini tutmuşdur. Təbii ki, əldə edilən müsbət nəticələr ölkəmizin gələcək inkişafı üçün də geniş imkanlar açmış, yaxın gələcək üçün Azərbaycanın perspektiv inkişaf hədəflərinin müəyyən edilməsi zərurətini ortaya qoymuşdur. Elə bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli Sərəncamı ilə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası qəbul edilmişdir.*

Konsepsiya 1 il müddətində mütəxəssislərin, elmi təşkilatların və yüksək ixtisaslı mütəxəssislərin iştirakı ilə hazırlanaraq demokratik prinsiplər gözlənilməklə açıq müzakirəyə verilmiş və yekun sənəd maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təsisatlarının və vətəndaşların çoxsaylı rəy və təkliflləri nəzərə alınmaqla ərsəyə gətirilmiş, ölkə başçısının 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Məlumat üçün qeyd edim ki, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva etməklə onun həyata keçirilməsini məqsədli dövlət proqramları vasitəsilə gerçəkləşdirilməsini nəzərdə tutur. Eyni zamanda bu mərhələnin əsas hədəfi ölkədə çoxşaxəli, innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə inkişafın təminatı, əhalinin rifahının yaxşılaşdırılması, həmçinin elm, təhsil, mədəniyyətin inkişafında yeni nailiyyətlərin əldə olunmasıdır. Adıçəkilən fərmanın imzalanmasından sonra ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən tədbirlər öz uğurlu nəticələrini göstərmişdir. Qarşıdakı illərdə bu tendensiyanın daha müsbət dinamika ilə müşayiət olunacağının şahidi olacağıq. Bu mükəmməl konsepsiyanın ayrı-ayrı sahələrə tətbiqindən və əldə edilmiş nailiyyətlərdən geniş bəhs etmək olar. Ancaq fikirlərimizi müəyyən istiqamətlər üzrə oxucularımızla bölüşmək daha münasib olardı.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, hazırda icrası davam etdirilən və yaxın gələcəkdə qəbul olunacaq istənilən dövlət proqramı bu konsepsiyanın tərkib hissəsidir. Praktik baxımdan böyük hədəflərə gedən yolun kiçik hədəflərdən keçdiyini nəzərə alsaq, sosial, iqtisadi, elmi, mədəni proqramların uğurlu icrasının bizi əsas hədəflərə apardığının bir daha şahidi olarıq. Bildiyimiz kimi, istənilən ölkənin hərtərəfli inkişafı yalnız yüksək əminamanlığın və sabitliyin təmin olunduğu şəraitdə mümkündür. Azərbaycan bu gün müharibə vəziyyətində olan bir ölkə olsa da, ölkədəki sabitlik, Silahlı Qüvvələrimizin ölkəmizin təhlükəsizliyinin təminatçısı rolunda çıxış etməsi sosial-iqtisadi inkişafın davamlı xarakter almasına şərait yaratmışdır. Muxtar respublikamızın sürətli inkişafının davamlı təminatçısı isə ötən ilin dekabrında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması oldu. Bu ordunun döyüş arsenalının ən müasir tələblər səviyyəsində təmin edilməsi Naxçıvanın gələcək inkişaf konsepsiyasının qarantı olmaqla bərabər, ölkə başçısının muxtar respublikaya strateji hədiyyəsi kimi də dəyərləndirilməlidir olar. Ardınca bu ordunun irimiqyaslı hərbi təlimlərə başlaması isə peşəkar hazırlıqdan çox, muxtar respublikanın gələcək iqtisadi inkişafına heç nəyin mane ola bilməyəcəyinin ilk siqnalı idi.

Təbii ki, sosial və siyasi cəhətdən sabitliyi təmin olunmuş bir ölkənin iqtisadi tərəqqiyə qovuşması çətin deyil. Azərbaycan gələcək iqtisadi inkişafını çoxşaxəli və innovasiyayönümlü görmək istədiyindən atılan addımlar da həmin istiqamətə uyğun atılır. Ötən ilin oktyabr ayında Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq sərəncamdan sonra bu ilin aprel ayının 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin əsasında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin yaradılması haqqında Sərəncam imzaladı. İqtisadi inkişafımızın sənayeləşmə istiqamətində formalaşdırılmasını özündə ehtiva edən bu rəsmi sənədi gələcəyin inkişaf konsepsiyasının növbəti, həm də mühüm tərkib hissəsi kimi qiymətləndirmək olar. Ötən illər ərzində muxtar respublikada bu sahədə vacib infrastruktur baza yaradılmışdır. 14 il bundan əvvəl, 2000-ci ildə Naxçıvan Muxtar Respublikasında 15 adda məhsul istehsal olunurdusa, bu gün istehsal olunan məhsulların sayı 23 dəfə artaraq 349-a çatdırılmışdır. İlin ilk 6 ayının statistik göstəricilərinə nəzər salsaq, görərik ki, hazırda muxtar respublikada 334 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Qeyd olunan dövrdə Ümumi Daxili Məhsulun tərkibində ilk yeri 31,5 faizlik payla sənaye sahəsi tutmuşdur. Yerli xammal mənbələri nəzərə alınmaqla yeni sənaye parklarının yaradılması, mövcud müəssisələrin istehsal həcminin artırılması yaxın gələcəkdə bu sahənin hərtərəfli inkişaf etdirilməsinin stimullaşdırılmasına geniş imkanlar açacaqdır. Əlbəttə, iqtisadi sahədə həyata keçirilən tədbirlər, azad sahibkarlıq fəaliyyətinə verilən dəstək yoxsulluğun azaldılması ilə bərabər, əhalinin məşğulluq problemlərinin həllində də öz sözünü deyir. Əgər 2003-cü ildə ölkəmizdə işsizliyin səviyyəsi 49 faiz təşkil edirdisə, ötən il bu rəqəm 5,2 faiz səviyyəsinədək düşmüşdür. Muxtar respublikamızda isə hazırda işsizlik sıfır səviyyəsindədir. Yeri düşmüşkən qeyd edim ki, bəzi inkişaf etmiş ölkələrdə işsizliyin səviyyəsi 25 faizdir, gənclər arasında isə bu rəqəm 50 faizə çatır.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda strateji hədəflərə daxil olan sahələrdən biri də informasiya-kommunikasiya texnologiyaları sahəsidir. Təsadüfi deyil ki, 2013-cü il ölkəmizdə “İnformasiya-kommunikasiya texnologiyaları ili” elan edilmişdir. Ötən il Azərbaycan ilk süni peykini orbitə çıxarmışdır. Həmin ilin fevral ayında isə muxtar respublikada “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzi yaradılmışdır. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin Naxçıvanda yaradılması muxtar respublika üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, idarəetmə mərkəzi muxtar respublikada informasiya təhlükəsizliyinin təmin edilməsi, elmtutumlu yeni layihələrin icrası, keyfiyyətli teleradio yayımı və rabitə xidmətlərinin göstərilməsi, eləcə də elektron hökumətin formalaşdırılması prosesinin sürətləndirilməsinə geniş imkanlar açır. Bir faktı da qeyd etmək istərdik ki, 2020-ci ilə qədər ölkəmizdə İKT ilə bağlı layihələrin həyata keçirilməsinə hökumət tərəfindən təxminən 3,6 milyard dollar vəsait xərclənməsi nəzərdə tutulmuşdur. Bu da telekommunikasiya sahəsində daha böyük uğurlar qazanacağımıza ümidləri artırır.

Naxçıvan Muxtar Respublikasında elm, təhsil, səhiyyə müəssisələrinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirilən tədbirlər hamımıza məlumdur. Muxtar respublikanın ali təhsil müəssisələrinin dünyanın aparıcı təhsil müəssisələri ilə getdikcə artan əməkdaşlığı, qarşılıqlı tələbə mübadilələri, AMEA Naxçıvan Bölməsi əməkdaşlarının ölkəmizin elmi mühitindəki xidmətləri, səhiyyə quruculuğu sahəsində atılan addımlar, idmanın kütləviliyinin artırılması, diyarımızın mədəni zənginliklərinin təbliği ilə bağlı görülən işlər humanitar sahədə yeni nailiyyətlərin əldə edilməsindən xəbər verir.

Hörmətli oxucular, hamımıza məlumdur ki, muxtar respublikanın bugünkü inkişafına mənfi təsir göstərən əsas amillərdən biri bu diyarın blokada vəziyyətində olmasıdır. Doğrudur, blokada şəraiti mövcud inkişafın qarşısını kəsə bilməsə də, muxtar respublikamızın potensial imkanlarından istifadəni az da olsa, çətinləşdirir. Ancaq ölkə başçısının beynəlxalq aləmdəki nüfuzu, atdığı qətiyyətli addımlar yenə də optimist düşünməyimizə imkan verir. Hamımıza məlumdur ki, Azərbaycanın təşəbbüsü ilə regionda bir çox strateji layihələr reallaşdırılıb. Hazırda belə layihələrdən biri olan Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi davam etdirilir. Bu ilə yekunlaşdırılması nəzərdə tutulan dəmir yolu xətti Asiya və Avropa qitələri arasında əsas yükdaşımalarını həyata keçirəcək strateji layihədir. Bu layihə tamamlandıqdan sonra Naxçıvanın blokada vəziyyətinə yeni nəfəs verəcək Qars-Gümrü-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinə başlanılacaq. Naxçıvan üçün böyük əhəmiyyət daşıyacaq bu strateji layihə həm də paytaxt Bakı ilə birbaşa dəmir yolu əlaqəsini bərpa edəcəkdir. Bölgə üçün mühüm logistika rolunu oynayacaq layihə muxtar respublikada turizmin inkişafına da böyük təkan verəcəkdir.

*Bəli, mövcud uğurları təhlil etdikcə, əldə edilmiş nəticələri nəzərdən keçirdikcə buna bir daha inanırıq ki, ölkəmizin, eləcə də muxtar respublikamızın gələcəyə daha uğurla addımlaması üçün dövlətimizin siyasi iradəsi və gücü var. Bu isə o deməkdir ki, biz gələcəyimizi indidən proqnozlaşdıra bilirik və “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası Naxçıvanda yeni uğurların təməlinə çevrilir.*

**Səbuhi HƏSƏNOV**

# Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir

***Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının 2014-cü il 17 yanvar tarixli iclasının qərarı ilə 2014-cü il üçün təsdiq olunmuş tədbirlər planının icrası nəzarətdə saxlanılmış, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər davam etdirilmişdir.***

Azərbaycan Respublikasının Prezidentinin 2013-cü il 24 iyun tarixli Fərmanı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir ki, bu da dövlət səviyyəsində narkomaniyaya qarşı mübarizənin davamlı olmasının və bu məsələyə həssas yanaşmanın bariz nümunəsidir.

2014-cü ilin 6 ayı ərzində Müsadirə Edilmiş Narkotik Vasitələri, Psixotrop Maddələri və onların Prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 21 qram 321 milliqram həşiş qatranı, 192 qram 342 milliqram tiryək, 7 kiloqram 506 qram 204 milliqram qurudulmuş marixuana, 1 kiloqram 388 qram çətənə kolu, ümumi çəkisi 4 qram 737 milliqram olan 13 ədəd fenobarbital preparatı yandırılaraq məhv edilmişdir. Qanunsuz dövriyyədən ümumi çəkisi 661 qram 731 milliqram olmaqla, 18 qram 813 milliqram heroin, 191 qram 675 milliqram tiryək, 376 qram 896 milliqram marixuana, 48 qram 307 milliqram həşiş, 26 qram 40 milliqram metadon, habelə psixotrop maddə hesab olunan 6 qram 901 milliqram metofetamin və ümumi çəkisi 25 qram olan 513 ədəd fenobarbital həbləri aşkarlanaraq götürülmüşdür.

Muxtar respublikada ötən 6 ayda narkomaniya ilə bağlı 11 cinayət hadisəsi, 1 inzibati fakt qeydə alınmışdır. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən 3 cinayət hadisəsi və 1 inzibati fakt aşkar edilərək 85 qram 4 milliqram qurudulmuş marixuana, 500 ədəd fenobarbital qanunsuz dövriyyədən çıxarılmışdır. Bu dövrdə narkomaniya ilə əlaqədar Naxçıvan Muxtar Respublikası məhkəmələrinin icraatında 9 nəfər barəsində 7 cinayət işi olmuş, cinayət işlərinə baxılaraq təqsirləndirilən şəxslər barəsində ittiham hökmü çıxarılmışdır. Bundan başqa, məhkəmələr tərəfindən 1 nəfər barəsində 1 inzibati xəta üzrə işə baxılmış və nəticələndirilmişdir.

Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən muxtar respublikaya qeyri-qanuni yollarla narkotik maddələrin gətirilmə kanallarının və bu işdə iştirak edən şəxslərin aşkar olunması, onların fəaliyyət dairəsinin müəyyənləşdirilməsi istiqamətində müvafiq əməliyyat tədbirləri həyata keçirilmişdir. Nəticədə, 5 cinayət faktı üzrə 18 qram 813 milliqram heroin, 20 qram 451 milliqram həşiş, 6 qram 901 milliqram metofetamin və 13 ədəd fenobarbital həbləri aşkar edilərək götürülmüşdür.

Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən də narkotik vasitələrin qaçaqmalçılığına qarşı mübarizə tədbirləri davam etdirilmiş, 3 cinayət faktı üzrə aşkar edilmiş 20 qram 132 milliqram həşiş, 191 qram 675 milliqram tiryək, 131 qram 12 milliqram qurudulmuş marixuana qanunsuz dövriyyədən çıxarılmışdır. Hesabat dövründə müvafiq orqanlardan icazə sənədi olmayan 31 min 904 ədəd psixotrop tərkibli dərman preparatlarının muxtar respublikaya gətirilməsinin qarşısı alınmışdır.

Cari ilin 6 ayı ərzində Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman nazirlikləri tərəfindən zərərli vərdişlərin qarşısının alınması məqsədilə maarifləndirmə işləri aparılmış, müxtəlif bilik və idman yarışları təşkil edilmiş, gənclərin idman məktəblərinə və federasiyaların məşqlərinə cəlb edilməsi yolunda tədbirlər davam etdirilmişdir. Bu dövrdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan orqanlar tərəfindən əsas diqqət profilaktik tədbirlərin həyata keçirilməsinə, gənclərin kütləvi idman və mədəni tədbirlərə cəlb edilməsinə yönəldilmişdir. Nəticədə, yetkinlik yaşına çatmayanlar və ya qadınlar arasında narkotiklərlə bağlı cinayət və inzibati məsuliyyətə cəlb edilən olmamış, muxtar respublikanın təhsil müəssisələrində narkotik vasitələrdən istifadə faktı aşkarlanmamışdır.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiya Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələrini rəhbər tutmaqla gənclər arasında sağlam həyat tərzinin formalaşması və asudə vaxtın səmərəli təşkil edilməsi istiqamətində aidiyyəti dövlət orqanlarının və ictimaiyyətin səylərini əlaqələndirərək narkomaniyaya qarşı mübarizə tədbirlərini davam etdirir.

***Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası***



## "Şərq qapısı"qəzeti "Ali media mükafatı"na layiq görülüb

İyulun 22-də Bakı şəhərində Azərbaycan milli mətbuatının yaradılmasının 139-cu ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.

Mərasimdə Azərbaycan milli mətbuatının keçdiyi çətin və şərəfli tarixi yola nəzər salınmış, "Əkinçi" qəzetinin xalqımızın həyatında oynadığı xüsusi rol vurğulanmışdır.

Sonra Mətbuat Şurasının təsis etdiyi "Ali media mükafatı" təqdim olunmuşdur. Bu il "Şərq qapısı" qəzeti Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinə görə "Ali media mükafatı"na layiq görülmüşdür.

"Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov mərasimdə çıxış edərək Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafı istiqamətində görülən işlərdən danışmış, mətbuatın inkişafına göstərdiyi diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə qəzetin əməkdaşları adından minnətdarlığını ifadə etmişdir. Bildirmişdir ki, 22 iyul ölkəmizdə "Milli Mətbuat Günü" kimi qeyd edilir. Bu gün həm də ona görə əlamətdardır ki, 1990-cı ilin 22 iyulunda ulu öndər Heydər Əliyev Naxçıvana qayıtmış və buradan Azərbaycanın xilasına başlamışdır. Əgər o tarixi qayıdış olmasaydı, bu gün nə qüdrətli, müstəqil Azərbaycan dövləti olacaqdı, nə də milli mətbuatımız belə yüksək inkişafa qovuşacaqdı.

Qeyd edək ki, Azərbaycan Mətbuat Şurası 2011-ci ildən başlayaraq özünün "Ali media mükafatı"nı təqdim edir. Mükafatın məqsədi jurnalistika sahəsində xidmətləri olan şəxslərin, eləcə də media orqanlarının fəaliyyətlərinin qiymətləndirilməsini təmin etməklə onların əməyinin medianın və bütövlükdə, cəmiyyətin inkişafı üçün prioritet səciyyə daşıyan istiqamətlərini ictimaiyyətə çatdırmaqdan, jurnalistikanın cəmiyyət həyatındakı rolunun artırılmasını stimullaşdırmaqdan ibarətdir.

**Xəbərlər şöbəsi**

---

***Milli-mənəvi dəyərlərimizi özündə əks etdirən tarix və mədəniyyət abidələrinin tədqiqi Naxçıvan Muxtar Respublikasında elm adamlarının qarşısına qoyulan əsas vəzifələrdəndir. Hər il tarixi abidələrimiz tədqiq edilərək tariximizin qaranlıq səhifələrinə işıq salınır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası zamanı muxtar respublika ərazisində qeydə alınıb pasportlaşdırılan abidələrin tədqiqi bu il də davam etdirilməkdədir. Belə abidələrdən biri də Şərur rayonunun Dizə kəndi yaxınlığında yerləşən Qızqala abidəsidir.***

## Qızqalada aparılan arxeoloji tədqiqatlar Cənubi Qafqaz və Yaxın Şərq tarixinin bir sıra qaranlıq məqamlarına aydınlıq gətirmişdir





Qızqala Oğlanqalanın şimalında, onunla üzbəüz yerləşir.

Arxeoloqların apardığı araşdırmalar zamanı Oğlanqala və Qızqalanın Erkən Dəmir dövründə vahid dövlət halında birləşərək Urartu işğalçılarına qarşı mübarizə apardıqları müəyyən edilmişdir. Azərbaycan-ABŞ birgə arxeoloji ekspedisiyasının araşdırmaları zamanı müəyyən olunmuşdur ki, bu iki qalanın ətrafındakı 487 hektarlıq ərazi müdafiə divarları ilə əhatə olunmuşdur. Bununla belə qədim Şərqin ən güclü quldar dövlətlərindən biri olan Urartu ilə müqayisədə bu, heç də böyük ərazi deyildi. Urartululara qarşı mübarizə aparan və öz müstəqilliklərini qoruyan Oğlanqala və Qızqala sakinlərinin gücü nədə idi? Builki tədqiqatlar zamanı beynəlxalq arxeoloji ekspedisiyanın əsas məqsədlərindən biri bu suala cavab tapmaq idi. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, Arpaçayın sağ sahilində Qızqala yaxınlığında Dəmir dövrünə aid böyük yaşayış yeri olmuşdur. Bu yaşayış yerinin sahəsi 80 hektara yaxındır. Qızqalanın yaxınlığında yerləşən Erkən Dəmir dövrünə aid Sədərək yaşayış yerinin sahəsi 20 hektar, Xələc yaşayış yerinin sahəsi 5 hektar, Qalacıq yaşayış yerinin sahəsi 10 hektardan artıqdır. Araşdırmalar göstərir ki, Erkən Dəmir dövründə Naxçıvanda güclü tayfa ittifaqları məskunlaşmışdır. Bu tayfalar, həmçinin Azərbaycanın Arazdan şimala yerləşən tayfalar, xüsusilə Göyçə hövzəsindəki tayfalar ilə sıx ittifaqda olmuşlar. Bunun nəticəsidir ki, urartuluların sərhədi Araz çayı ilə məhdudlaşmışdır. Azərbaycanın Arazdan cənubdakı ərazilərində xeyli Urartu qalası olduğu halda, şimalda, xüsusilə də Naxçıvan ərazisində Urartu qalaları yoxdur. Urartu mixi yazılarında da bu haqda heç bir məlumat yoxdur. Urartu dövlətinin tarixini və mədəniyyətini tədqiq edən B.B.Piotrovski yazır ki, əgər mixi yazılar qonşular haqqında susursa, bu, sərhədlərdə gedən ağır döyüşlərdən və məğlubiyyətdən xəbər verir. "Naxçıvan tarixi" çoxcildliyinin I cildində Urartu hökmdarı II Argiştinin Sisian yaxınlığında tapılmış kitabəsi haqqında belə məlumat verilir: "Mənim qarşıma ...Etiuni ölkəsinin çarı gəldi, ölkəsinin vergisini mənə verdi..." Kitabənin mətni Göyçə gölü hövzəsində yaşayan Etiuni tayfa birliyinin Naxçıvan yaxınlığında yerləşdiyinə işarə edir və bu konfederasiyanın böyük ərazini əhatə etdiyini təsdiq edir. Kitabənin mətni həmçinin Etiuni konfederasiyasına daxil olan tayfaların xərac verməklə işğaldan yaxa qurtardığını, həmçinin onların urartululardan nisbi asılılığını göstərir.

Bu il Qızqalada aparılan tədqiqatlar Cənubi Qafqaz və Yaxın Şərq tarixinin bir sıra qaranlıq məsələlərinə aydınlıq gətirmişdir. Keçən il aparılan araşdırmalar zamanı Qızqalada böyük çoxtəbəqəli yaşayış yerinin olduğu müəyyənləşdirilmişdir. Hazırda yaşayış yerinin Orta Tunc dövrü təbəqəsi tədqiq edilməkdədir. Orta Tunc dövrünə aid mədəni təbəqənin qalınlığı 2 metrdən artıqdır. Məlum olduğu kimi, Cənubi Qafqazın bir sıra regionlarında, yaşayış yerlərində Orta Tunc dövrü təbəqəsi yoxdur. Orta Tunc dövrü təbəqəsinə Şərqi Anadolu abidələrində də rast gəlinməmişdir. Orta Tunc dövrünün yaşayış yerləri, başlıca olaraq, Naxçıvanda və Azərbaycanın Araz çayından cənubdakı ərazisindədir. Bu isə Orta Tunc dövrünə aid Boyalı qablar mədəniyyətinin Naxçıvanda formalaşdığını göstərir.

Tədqiqat işləri həmçinin yaşayış yerinin yaxınlığında yerləşən nekropolda da davam etdirilməkdədir. Nekropoldakı kurqanların tədqiqi zamanı Boyalı qablar mədəniyyətinin erkən mərhələsinə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Tədqiqat zamanı aşkar olunan maraqlı faktlardan biri də qəbirlərdə insan skeletinin aşkar olunmasıdır. Məlum olduğu kimi, Cənubi Qafqazda Orta Tunc dövrü qəbirlərində insan skeleti aşkar olunmadığından bəzi tədqiqatçılar bu mədəniyyəti hind-arilərə aid etməyə cəhd etmişlər. Aşkar olunan yeni faktlar bu nəzəriyyənin tərəfdarlarına güclü zərbə olmaqla, Naxçıvanda formalaşan Orta Tunc dövrü mədəniyyətləri arasındakı varislik əlaqələrini müəyyən etməyə imkan verir.

Tədqiqatlar zamanı yeni aşkar olunan faktlardan biri də indiki Ermənistan ərazisində yayılan "Təzəkənd mədəniyyəti" ilə bağlıdır. Özünəməxsus keramika məmulatı ilə fərqlənən bu mədəniyyətin adını ermənilər dəyişdirərək "Karmirberd mədəniyyəti" adlandırmışlar. Lakin Yaycı nekropolundan və bu il tədqiq edilən kurqanlardan tapılan boyalı qablar bu mədəniyyətin Naxçıvanda yaşayan tayfalarla bağlı olduğunu bir daha təsdiq edir. Şübhəsiz ki, gələcək tədqiqatlar bu məsələni daha da aydınlaşdırmağa imkan verəcəkdir.

*Qalatipli yaşayış yerləri, oturaq əkinçilik mədəniyyətinin fasiləsizliyi və rəngarəngliyi ilə fərqlənən Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti dünya alimlərinin böyük marağına səbəb olmuşdur. Əldə edilən bu nailiyyətlər muxtar respublika rəhbərinin tariximizə, tarixi abidələrimizə və mədəni irsimizə diqqət və qayğısının sayəsində mümkün olmuşdur. Heç bir şübhə yoxdur ki, yurdumuzun qədim abidələrinin tədqiqi elmi yeniliklər əldə etməyə, dünya elmi ictimaiyyətini təəccübləndirməyə davam edəcəkdir.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

---

## Ağbulaqda növbəti yay düşərgəsi

*Peşəmlə əlaqədar Şahbuz rayonunun kəndlərində, yaşayış məntəqələrində tez-tez olur, həyata keçirilən quruculuq və yenidənqurma işlərinin yurd yerlərinə bəxş etdiyi gözəlliklərin insanlarda doğurduğu əhval-ruhiyyəni davamlı müşahidə edirəm. Gəldiyim qənaət budur ki, uğurlu inkişafın əsas səbəbi dövlət qayğısı və hər kəsin vəzifə borcunu məsuliyyətlə yerinə yetirməsidir. Qurulanlar, yaradılanlar Vətənimizi gülüstana çevirməkdədir.*



Bu günlərdə haqqında tez-tez xoş sözlər eşitdiyim bir kəndə getdim. Dəniz səviyyəsindən 1900 metrə yaxın yüksəklikdə yerləşən Ağbulağa yol aldıq. Getdikcə çiyin-çiyinə dayanmış əzəmətli dağların əhatəsinə düşdük. Üzüyuxarı yüksəkliyə qalxdığımız ərazidə dağların ətəyindəki yaşıllıq adamı valeh edirdi. Yol boyu isə yeddi rəngin müxtəlif çalarları ilə gözümüzü, könlümüzü oxşayan gül kollarının qönçələri ətrafdakı gözəlliyə başqa bir təravət verirdi.

Şahbuz rayonunun ən ucqar dağ kəndinin qonaq-qarasının artmasına və dillər əzbəri olmasına səbəb burada Ağbulaq İstirahət Mərkəzinin fəaliyyətə başlamasıdır. Bu istirahət mərkəzinin istifadəyə verilməsi isti yay günlərində sərin hava, təbiət gözəllikləri həvəsi ilə yaşayanların arzusunu çin edib. İndi Ağbulağa istirahətə gələn müxtəlif yaş qruplarından və sənət sahiblərindən ibarət dəstə-dəstə insanlar bir vaxtlar adını belə bilmədikləri bu yurd yerinin vurğununa çevriliblər.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası bu il bir neçə dəfə Naxçıvan şəhərindəki tam orta məktəblərin əlaçı şagirdlərinin, həmçinin tələbə-gənclərin və müxtəlif peşə sahiblərinin Ağbulaq İstirahət Mərkəzində bir neçə günlük istirahətlərini təşkil edib, yurdumuzun gənc nəslə tanıdılması, sevdirilməsi istiqamətində əməli tədbirlər həyata keçirib. Bu günlərdə yenə də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə tətil günlərində bir qrup məktəblinin 3 günlük Ağbulaq İstirahət Mərkəzində asudə vaxtlarının səmərəli təşkili, uşaqların rəqs, şahmat, dama, rəsm, şeir müsabiqələrinin iştirakçısı olmaları bir daha onu göstərir ki, gələcəyimiz olan uşaqlara həm Vətənimiz sevdirilir, həm də onların intellekt səviyyəsinin yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirilir.

Ağbulağın istirahət mərkəzi ilə yanaşı, təbiət mənzərəsini də görənin xoş halına deyə, düşündüm. Dağları buludlardan nəm çəkən bu kəndə yurdumuzun Günəş payından, gözyaşı kimi sularından, dadlı-tamlı meyvələr yetirən bərəkətli torpağından elə bil ki, daha çox pay düşüb. Sıldırım dağların ətəyindəki yastanlar, məğrur qayalar, gen dərələr bu yurd yerinə Yaradanın ərməğanıdır.

Belə bir yurd yerində istirahət mərkəzinin tikilməsi ideyasını gerçəkləşdirmək Vətənə olan böyük sevginin göstəricisidir. Belə bir yerin kənd haqqında o qədər də səlis təsəvvürü olmayan şəhər məktəblisinə, yeniyetmə gənclərə tanıdılması istiqamətində görülən işlərin dəyərini Ağbulağın budəfəki qonaqlarından biri olan Nurlan Eyvazov öz fikirlərini açıqlamaqla verdi:

– Mən eşidəndə ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən Ağbulaq İstirahət Mərkəzinə istirahətə göndərilən məktəblilərdən biriyəm, doğrusu, çox da sevinmədim. Çünki istirahətimi, düşünürdüm ki, daha yaxşı, mənzərəli bir bölgədə keçirsəm, daha mənalı istirahət etmiş olaram. Ağbulağın isə heç vaxt görmədiyim Şahbuz rayonunun lap ucqar dağ kəndi olduğunu eşidəndə daşı, kəsəyi yol boyu hara gəldi tökülən, yolu narahat, səliqə-sahmansız bir yer olduğu nəzərimdə canlanırdı. Lakin biz Ağbulaq kəndinə getmək üçün üz tutduğumuz Şahbuz rayonunun girəcəyindən xoşuma gələn mənzərə məni Ağbulağa kimi valeh etsə də, kənddə gördüyüm istirahət mərkəzinə daha çox heyran qaldım. Elə mənim kimi bura gəlməkdə tərəddüd edən yoldaşlarımın da heyrət içində buradakı gözəlliyə tamaşa etdiklərini gördüm və düşüncələrimizdə yanıldığımızı bildim. İndi mən sevinirəm ki, yurdumuzun belə gözəl kəndləri və o kəndlərdə bizim üçün yaradılan gözəllikləri var. Mən indi Ağbulaqda istirahət etdiyim bu günlərin dəyərini anlayıram və kənddən getmək istəmirəm. Ailəmin, yaxın dostlarımın da tez-tez bu ünvana üz tutacağına əminəm. İstirahət mərkəzinin bizə ayrılmış otaqlarında ən yüksək səviyyədə şərait yaradılması, hərtərəfli xidmətin təşkili, tarixi və arxeoloji abidələrə gəzintilərimiz mənim bu yerlər haqqında çox böyük məlumat əldə etməyimə səbəb oldu. Dünənə kimi tanımadığım və görmədiyim Şahbuz rayonunun indi hər bir kəndində olmaq istəyirəm.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının xətti ilə Ağbulaq İstirahət Mərkəzində dincələn məktəblilərin hər biri Nurlan kimi bu kənd haqqında heyranlıqlarını bildirdilər. Deməli, yenidənqurma işlərinin mükəmməl və məqsədyönlü şəkildə aparıldığı yurd yerlərimizi tanıtmaq və Vətənimizin gənc nəslə sevdirilməsi üçün nazirliklərin, komitələrin, idarə, təşkilat və müəssisələrin kollektivləri də önəmli işlər görürlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən görülən işlərə öz töhfəsini verən hər kəs, sözsüz ki, qarşısına qoyulan vəzifələrin icrasına məsuliyyətlə yanaşır. Ağbulaq İstirahət Mərkəzi fəaliyyətə başladığı dövrdən etibarən mərkəzin rəhbərliyi tərəfindən verilən məlumata əsasən, buraya yüzlərlə məktəblinin, tələbə-gəncin və müxtəlif sənət sahibi olan insanların istirahətə gəlməsi onu göstərir ki, gözəlliyi yüz eşitməkdənsə, bir görmək istəyi daha güclüdür. İnanırıq ki, Ağbulağa bir gələn, bir də gəlmək istəyəcək. Turizm imkanları geniş olan bu kəndin yollarından tutmuş təmizliyinə, səliqə-sahmanına qədər hər kəsi valeh etməsi, əsrarəngiz təbii görüntüsü onu indi uzaq-uzaq ellərdən görməyə gələn qonaqların da könlündə unudulmaz anlarla əbədiləşdirəcək.

**Şəhla NƏBİYEVA**

***"Din" sözünün etimologiyası haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi dilçi alimlər onun ərəb dilindəki "eyn" sözündən törədiyini və "adət, mükafat və ya itaət" mənalarına gəldiyini, digər dilçilər isə "deyn" sözündən törədiyini "hökm, itaət, mükafat, fərman və ibadət" mənalarını verdiyini qeyd etmişlər. "Qurani-Kərim"də "din" sözü 92 dəfə işlənmiş, bəzi ayələrdə isə "yəvm" sözü ilə birlikdə "yəvmiddin" – "din günü" şəklində ifadə olunmuşdur.***

## Din insanları əbədi səadətə çatdıracaq bir vasitədir

"Qurani-Kərim"in "Qiyamət" surəsinin 36-cı ayəsində Allah-Taala tərəfindən "İnsanoğlu özünün başıboş buraxılacağınımı zənn edir?" – deyə buyurulmaqdadır. Allah-Taala yaratdığı insanı dünyada və axirətdə doğru şəkildə yaşaması üçün yer üzünə peyğəmbərlər göndərmiş və bu peyğəmbərlər Allahın özü ilə qulları arasında elçilik missiyasını həyata keçirərək ondan aldıqları əmr və qadağaları insanlara çatdırmış, onları Allahın əmrlərinə riayət etməyə dəvət etmişlər. Beləliklə də, Allahın insanlara elçiləri vasitəsilə göndərdiyi əmr və qadağalar "din"i meydana gətirir. Başqa sözlə, dinə Allah ilə insan arasındakı əlaqələri formalaşdıran qanun da deyə bilərik. Tanrı hər dövrdə bəşəriyyətə peyğəmbərlər göndərmiş və insanlara həmin peyğəmbərlərin gətirdikləri dinə itaət etmələrini buyurmuşdur. Peyğəmbərlərin göndərilmədiyi müddətlərdə isə insanları dünyada etdikləri əməllərə görə axirətdə sorğu-sual etməyəcəyini də müqəddəs kitabımızda bildirmişdir. "İsra" surəsinin 15-ci ayəsində deyilir: *"Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz. (hərə öz günahına cavabdehdir). Biz peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab verməri̇k!"*

Dinin qaynağını araşdırarkən insanın Yer üzündə yaşadığı dövrləri dərindən incələməliyik. Bu zaman insanın olduğu hər yerdə mütləq hər hansı bir dinin olduğunu görərik. Çünki insan, hər şeydən öncə, ağıllı bir varlıqdır. Dünyaya nə üçün və necə gəldiyini, kim olduğunu dərk etməyə çalışmış, gücünün olduğunu anlamış, gördüyü cismləri incələmiş və kainatın nizam-intizama uyğun hərəkət etdiyini anlamışdır. Hərçənd ki, bəzi insanlar təbiət hadisələrindən qorxduqları üçün onlara sitayiş edərək qurbanlar kəsmişlər və bunlar dinin qorxudan meydana gəldiyinə dəlalət etmiş, insanlar qorxunun olmadığı zamanlarda da inanacaq və etibar edəcəyi güclü bir varlığı axtarmışlar.

Din bəzilərinin düşündüyü kimi, sadəcə, insanla Allah arasındakı münasibətlərdən ibarət deyil. Qeyd olunanlar dinin bir qismidir. Dinin əsas hissəsi insanlar arasındakı münasibətləri formalaşdırmaqdan ibarətdir. Din insanlar üçün mövcuddur və bütün mədəniyyətlərin təməlində din vardır.

Din insanların düşüncə və davranışlarını yönləndirən bir nizam-intizamdır. İnsan ruh və bədəndən yaranmış bir varlıqdır. Bu varlığın rahat, sakit bir həyat yaşaması dinin məqsədidir. Normal bir həyat isə həm ruhun, həm də bədənin ehtiyaclarını təmin etməklə həll olunur ki, bunu da din vasitəsilə reallaşdırmaq mümkündür. İnsan nə cismani, nə də ruhi istəyinə biganə qala bilər. Cismani ehtiyaclarına məhəl qoymazsa, saglamlığı əldən gedər, ruhi ehtiyaclarına məhəl qoymazsa, kamil insan ola bilməz. Hər insan dini öz iradəsiylə seçər, heç bir dində zorakılıq yoxdur. "Əl-Bəqərə" surəsinin 256-cı ayəsində deyilir: "Dində məcburiyyət yoxdur".

Hər hansı bir peyğəmbərin gəlmədiyi dövrlərdə insanlar öz ağılları ilə bir din və ibadət formalaşdırmış, hissləri ilə Allahın varlığını dərk etsələr də, ona necə ibadət edəcəklərini bilməmişlər. Beləliklə də, müxtəlif cəmiyyətlərdə bir-birindən fərqli dinlər, eləcə də ibadət formaları meydana gəlmişdir. Bu dinlərin bir qismi yaddaşlardan silinmiş, bir qismi isə günümüzədək gəlib çatmışdır. Qeyd olunan dinlər insanlar tərəfindən uydurulduğu üçün batil dinlər adlanır. "Qurani-Kərim" bu haqda bizə İbrahim Peyğəmbərin ona peyğəmbərlik verilmədən öncə onun Yaradanı tapmaq üçün Ayı və Günəşi Allah hesab etməsini misal göstərmişdir. "Ənam" surəsinin 76-79-cu ayələrində deyilir: *"Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: "Bu, mənim Rəbbimdir!" – dedi. (Ulduz) batdıqda isə: "Mən batanları sevmirəm" söylədi. (Sonra) doğan Ayı görüb: "Bu, mənim Rəbbimdir!" – dedi. (Ay) batdıqda isə: "Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım" söylədi. Daha sonra doğan Günəşi görüb: "Bu, mənim Rəbbimdir, bu daha böyükdür!" – dedi. (Günəş) batdıqda isə dedi: "Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan (bütlərdən, səma cismlərindən) uzağam! Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri Yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm!"*

İbrahim Peyğəmbər yaşadığı dövrdə insanlar bütlərə sitayiş etdiyindən o, bütlərin yaradıcı olmadığını görmüş və Allahı axtarmağa başlamışdır.

Dinlər mahiyyət etibarilə iki hissəyə bölünür: haqq və batil dinlər. Haqq dinlərə Allah tərəfindən göndərilənlər, batil dinlərə isə insanlar tərəfindən uydurulan, yəni bütpərəstlik, totemist və ya çoxtanrıçılıq dinlər aid edilir. Bu gün Yer üzündə müxtəlif dinlər mövcuddur. Bunlardan – haqq dinlərdən, yəni haqdan, Allahdan gələnlər Yəhudi, Xristian və İslam dinləridir. Yəhudi dini Musa Peyğəmbər vasitəsilə yayılıb, müqəddəs kitabı "Tövrat"dır. Xristian dini İsa Peyğəmbər tərəfindən yayılıb, müqəddəs kitabı "İncil"dir. Hər iki din barəsində də "Quran"da bir neçə yerdə bəhs olunub. Belə ki, "Saf" surəsinin 6-cı ayəsində deyilir: *"Məryəm oğlu İsa da: "Ey İsrailoğulları, mən Allahın elçisiyəm, məndən öncə gələn "Tövrat"ın təsdiqləyicisi və məndən sonra gələcək olan Əhmədi sizlərə bildirmək üçün göndərildim" demişdir".* İstər "Tövrat", istərsə də "İncil" lazımınca qoruna bilməmiş, zamanla müxtəlif hissələri məqsədli şəkildə yox edilmiş və ya dəyişdirilmişdir. Buna görə də günümüzdə müxtəlif versiyalarda hər iki kitabın nüsxələri mövcuddur. "İncil"in "Mata", "Markos", "Luka" və "Yuhanna" olmaqla, 4 ayrı nüsxəsi mövcuddur.

Səmavi dinlərin sonuncusu İslamdır. İslam dini Məkkədə, 610-cu ildə Həzrəti Məhəmməd Peyğəmbərə Cəbrail vasitəsilə vəhy olunmasıyla meydana gəlmişdir. "İslam" sözünün mənası "Allaha təslim olmaq, onun qadağalarına riayət eləmək, sülh və əmin-amanlıq içərisində yaşamaq" deməkdir. İslamın Peyğəmbəri Həzrəti Məhəmməd 570-ci ildə Məkkədə anadan olmuş, Haşimoğullarından Abdullah ilə Vəhb sülaləsindən Əminənin oğludur.

İslam dini tək bir Allaha inanmağı və yalnız ona ibadət etməyi əmr edir və beləliklə də, Həzrəti Adəm Peyğəmbərdən etibarən davam edən ilahi dinlərin sonuncusudur. "Qurani-Kərim" son müqəddəs kitab, Məhəmməd Peyğəmbər isə son peyğəmbərdir. "Əhzab" surəsinin 40-cı ayəsində deyilir: *"Məhəmməd içinizdən hər hansı birinin atası deyildir, o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir".* Heç bir peyğəmbər hər hansı bir dinin qurucusu deyildir, onlar, sadəcə, Allah tərəfindən onlara vəhy olunanları bəyan və izah edənlərdir.

Din ağıl sahiblərinə müraciət edər. Bütün səmavi dinlərin məqsədi və vəzifəsi insanı dünyada insana layiq şəkildə yaşamağa sövq etməkdir.

***Son olaraq dinə belə bir tərif vermək olar: din ağıl sahibi olan insanları dünya və axirətdə əbədi səadətə çatdıracaq bir vasitədir.***

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

## Əkinçilik mərasimlərimizdən: *xırmanüstü*

*Ötən əsrin sonlarına doğru Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da əkinçilik mərasimlərimizdən olan xırmanüstü mərasimi qeyd edilərdi. Xırmanüstü mərasimi elə ilin bu dövrlərində, yəni yay fəslinin ortalarında keçirilərdi. Bu zaman el-oba çöldə biçilən taxılı xırmanda döyərdi. Xırman xalqımızın bərəkət yeri, səcdəgahı olmuşdur. "Xırman ətəyi, bərəkət ətəyidir", – deyib atalarımız.*

Xırman dərzlərin döyülüb təmizlənməsi üçün ayrılmış yerdir. Taxılın döyülüb hazırlanması üçün əvvəlcə yer hazırlanırdı. Xırman, əsasən, küləktutan və hündür yerdə ya əkin sahəsinin kənarında, ya da evlərin, kəndin ətrafında düzəldilərdi. Bəzi bölgələrdə hər kəsin ayrı xırman yeri, bəzi bölgələrdə isə bir neçə ailəyə məxsus şərikli xırmanlar olardı. Bu daha çox məhsulun az və ya çox olması ilə bağlıdır. Şəriklər öz dərzlərini xırmanda növbə ilə döyərdilər.

Xırman döyüm üsulunun Naxçıvanda müxtəlif qaydaları mövcud olmuşdur. Bu döyüm qaydaları ardıcıl mərhələlərlə həyata keçirilərdi. Əvvəlcə gehrə döyümü, sonra car-car döyümü və nəhayət gəmlə (vəllə) döyüm qaydası ilə dən küləşdən ayrılardı.

Toplanmış etnoqrafik materiallara görə, əkin sahəsindən biçilmiş dərzlər arabalara, ulaqlara yüklənib xırman yerinə gətirilərdi. İlk dərzi xırmana birinci gətirən arabaçıya, adətə görə, hədiyyə, xələt verilərdi. Xırmanda dərzləri üst-üstə yığıb həşan vurardılar. Adətən, əliuğurlu, ağzıdualı ağsaqqal heşan salardı. Bir gün taxıl heşanda qalır, sonra isə döyüm başlanılardı. Heşan yatsın deyə, onu at, öküzlə ayaqladardılar. Bundan əlavə, 3-4 iribuynuzlunu bir-birinə çataraq xırmanda dairəvi halda sürdürərdilər. Buna xalq arasında "cehrə" (bəzi kəndlərdə "gehrə") deyərdilər. Topladığımız etnoqrafik-çöl materiallarına görə, heyvanların küləşi yeməməsi üçün ağızlarına ağızlıq keçirərdilər.

Taxılı döymək üçün vəl və carcardan istifadə edilərdi. Hər iki alət bərk, möhkəm ağacdan hazırlanardı. Car-car heşanı doğrayır, dəni küləşdən tam ayırmırdı.

Vəlin böyük və kiçik, ağır və yüngül olması taxılın növü və iqlim şəraiti ilə də bağlıdır. Dağ və dağətəyi zonalarda, bir qayda olaraq, vəllər iri və qalın olur ki, bu da döyüm prosesini nisbətən asanlaşdırırdı. Düzənlik ərazilərdə, əksinə, buğdanın daha quru olması ilə əlaqəli olaraq, vəllər yüngül və kiçikhəcmli düzəldilirdi. Vəl və car-carı öküzlərə, atlara qoşub xırmanda sürərdilər. Qoşquda əsas güc əl öküzünə düşdüyündən ona xüsusi diqqət yetirərdilər. Vəl ağır olsun deyə, uşaqlar (hodaq) vəlin üzərində oturardılar. Vəl sürən isə hərdən dayanıb küləşi çevirərdi. Ustad şairimiz Şəhriyar demişkən:

*Novruzəli xərməndə vəl sürərdi,*
*Gahdan yenib küləşləri kürərdi.*

Bu zaman holavar səsi bütün ətrafa yayılardı. Elə ki heşan əzildi, küləş sünbüldən seçildi, sonra samanı dəndən ayırmaq üçün sovuruq işinə başlayardılar. Sovuruş çətin və xüsusi ustalıq tələb etdiyi üçün bu iş daha bacarıqlı işçilər tərəfindən görülürdü. Sovuruq üçün mütləq külək əsməli idi. Şahbuz bölgəsinin dağlıq zonada yerləşən kəndlərində qeyd edilir ki, xırmanda buğdanı sovurmaq üçün aran zonasından axşamüstü qalxan qara küləyin gəlməsi gözlənilirdi. Bu külək buğdanı sovuruğa vermək üçün daha əlverişli idi. Ordubad rayonunun Düylün kəndində söyləyicilərin verdiyi məlumata görə, xırman dövründə Kəmki dağının başında qara bulud göründəndə hamı sevinərdi. Çünki bu zaman küləyin əsəcəyini bilərdilər. İnsanlar bu zaman qara buluda xeyir, bərəkət kimi baxardılar.

Bəzən elə olardı ki, külək əsməz, insanlar günlərlə küləyin əsməsini gözləyərdilər. Belə hallarda külək çağırmaq ayini keçirilərdi.

Bir məlumatı da qeyd etmək istərdik ki, əkinçilər çalışardılar ki, "quyruq doğdu"ya qədər (xalq təqvimində bir dövrdür: avqust ayının əvvəllərində quyruq doğar, yəni quyruqlu ulduzlar görünər) xırmanda sovuruq işini bitirsinlər. Çünki bu dövrdən sonra külək əsməzdi. Bu dövrdən sonra kəndli payızlıq şumu üçün əkin sahələrinə çıxardı.

Taxıl təmizləndiyi zaman xırmanüstü adətinə əməl edilərdi, yəni şəriklər öz payını götürər, əgər borc varsa, ödənilər, kimə pay veriləcəksə, ayrılar, bundan sonra qalan buğda evə gətirilərdi. Xalq arasında "xırmanüstəgetmə" adəti də mövcud idi. Xırman üstə gələnə pay (xərmənçəlik) verilərdi. Buna el arasında "yemişhaqqı" da deyərdilər ki, yemiş (qovun, qarpız) verib, buğda alardılar. Bundan başqa, bayram günü kimin torpağı yoxdursa, ona kömək məqsədilə dərz verərdilər. İnama görə, xırmanüstəgetmə günü xırmandan hamilə qadın buğda götürsə, oğlu olacaqdır.

Qeyd edək ki, bu cür şənliklər məhəlli xarakterli olub, bolluq etiqadına söykənir. Bu adətlər digər türk xalqlarında keçirilən mərasimlərlə oxşarlıq təşkil edir.

Yuxarıda bəhs etdiyimiz işlər, adətən, yay fəslinin ikinci ayından başlayaraq bir ay müddətində həyata keçirilirdi. Xalq təqviminə uyğun olaraq, bu aya "xırman ayı" deyilirmiş.

Sadaladıqlarımızdan belə aydın olur ki, xalqımız qədim dövrlərdən başlayaraq günümüzədək təsərrüfat sahələrini inkişaf etdirmək, bol məhsul əldə etmək üçün xalq təqvimindən yararlanmış və bununla bağlı xüsusi mərasimlər təşkil edilmişdir. Eyni zamanda bu sahədə ənənəvilik sistemi qorunub günümüzədək yaşadılmışdır.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru***

## Həkim briqadası Teyvazda kütləvi profilaktik müayinələr aparmışdır

***Muxtar respublika əhalisinə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə yaradılmış həkim briqadaları şəhər, qəsəbə və kəndlərdə kütləvi profilaktik müayinələri davam etdirirlər.***

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası ənənəni davam etdirərək Culfa rayonunun Teyvaz kənd feldşer-mama məntəqəsində əhalini kütləvi profilaktik müayinələrdən keçirib. Terapevt, pediatr, cərrah, kardioloq, otolorinqoloq və digər yüksəkixtisaslı həkimlərlə təmsil olunan həkim briqadası tərəfindən gün ərzində 28 xəstə müayinə edilib, 13 laborator analizi, 8 elektrokardioqrafiya müayinəsi aparılıb. 1 nəfərdə endokrinoloji (şəkərli diabet), 2 nəfərdə psixonevroloji, 4 nəfərdə hipertoniya, 4 nəfərdə bruselloyz, 2 nəfərdə böyrəkdaşı, 2 nəfərdə isə öddaşı xəstəliyinə meyillilik aşkarlandığından onlar əlavə müayinə üçün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə və müvafiq dispanserlərə göndəriliblər. Xəstələrin müayinəsində feldşer-mama məntəqəsinin tibb bacıları həkim briqadasına yaxından köməklik göstəriblər. Kənd sakinləri arasında mövsümi xəstəliklər, ürək-damar, yoluxucu, dərizöhrəvi, onkoloji, şəkərli diabet, cərrahi, vərəm, ginekoloji və digər xəstəliklər haqqında səhiyyə maarifi işi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şahbuz şəhəri, Heydər Əliyev prospekti, bina 3, mənzil 15-də yaşayan Əliyeva Tamella Hidayət qızının adına olan 194 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi iş yoldaşları Nailə Tutayuka və Nazlı Kəngərliyə, əzizləri
**SAİMƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Nəzakət Quliyeva, Hafizə Mirzəyeva, Nüşabə Əliyeva, Səkinə Abutalıbova və tibb bacısı Təriqə Ələkbərova Xaspolad, Nailə Tutayuklara və Nazlı Kəngərliyə, əzizləri
**SAİMƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Gülnarə Hümbətova, Bəhriyyə Novruzova, Südabə Aslanova və Nəzakət Gülməmmədova Xaspolad, Nailə Tutayuklara və Nazlı Kəngərliyə, əzizləri
**SAİMƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Nömrəyə məsul:* Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 634